*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.84-89*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.84-89*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.84-89*

**UOT: 159.923.2:37.016.1**
https://doi.org/10.30546/670832.2025.02.1128

# Azərbaycan ailəsində ailədaxili münasibətlərin formalaşmasının psixoloji əsasları

**Müəllif(lər):**

**Nurtac Sadiqova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** nurtacsadiqova2504@gmail.com

**Açar sözlər:** Azərbaycan ailəsi, uşaq tərbiyəsi, müasir ailə, dəyərlər, etnik mənsubiyyət

**Annotasiya.** Məqalədə Azərbaycan ailə modelində ailədaxili münasibətlərin psixoloji əsasları araşdırılmış, bu münasibətlərin formalaşmasında mədəniyyət, ənənə, sosial dəyişikliklər və fərdi psixoloji amillərin rolu təhlil olunmuşdur. Məqalədə valideyn-övlad, ər-arvad və digər ailə üzvləri arasındakı münasibətlərin qarşılıqlı təsiri, emosional bağların inkişafı və müasir dövrdə bu münasibətlərə təsir edən psixoloji amillər diqqət mərkəzinə çəkilmişdir. Araşdırmanın nəticələri ailə psixologiyasının inkişafına və münasibətlərin sağlam təməllər üzərində qurulmasına töhfə verir. Məqalənin əsas məqsədi Azərbaycan ailələrində ailədaxili münasibətlərin formalaşmasına təsir edən psixoloji amilləri araşdırmaq, bu münasibətlərin sosial və emosional dinamikasını anlamaq və sağlam ailə münasibətlərinin inkişafı üçün elmi əsaslandırılmış tövsiyələr təqdim etməkdir. Tədqiqat zamanı psixoloji müşahidə, elmi ədəbiyyatların təhlili, anket və sorğu üsullarından istifadə olunmuşdur. Araşdırma nəticələri göstərir ki, Azərbaycan ailələrində ailədaxili münasibətlər əsasən ənənəvi dəyərlərə əsaslanır, lakin müasirlik təsiri ilə dəyişikliklər baş verir. Sağlam ailədaxili münasibətlərin formalaşması üçün psixoloji maarifləndirmə və ailə psixoloqlarının dəstəyi önəmlidir. Nəzəri baxımdan, məqalə ailə psixologiyası sahəsində elmi biliklərin zənginləşdirilməsinə töhfə verir. Praktik baxımdan isə, psixoloqlar, pedaqoqlar, sosial işçilər və valideynlər üçün ailədaxili münasibətləri düzgün qurmaq və inkişaf etdirmək üçün faydalı ola biləcək tövsiyələr təqdim edir.

## Psychological bases of the inter-family relationships formation in the Azerbaijani family

**Author(s):**

**Nurtaj Sadykova**
Nakhchivan Teachers Institute
Master Student
**E-mail:** nurtacsadiqova2504@gmail.com

**Key words:** Azerbaijani family, child upbringing, modern family, values, ethnic identity

**Abstract.** İn the article the psychological bases of inter-family relationships in the sample of Azerbaijani family were searched, the role of culture, tradition, social changes and individual psychological factors in the formation of these relationships. Particular attention was paid to the mutual interaction between parents and children, couple and other family members, the development of emotional ties and the psychological factors influencing family relations in modern time. The results of study contribute to the development of family psychology and building relationships on healthy bases. The key-note of the article is to investigate the psychological factors affecting the formation of inter-family relationships in Azerbaijani families, to understand their social and emotional dynamics, and to present scientifically grounded recommendations for the development of healthy family relations. Psychological observation, analysis of scientific literature, questionnaires and survey methods were used during the research. The results of research indicate that, inter-family relationships in Azerbaijani families are mainly based on traditional values; however, changes occur under the influence of modernity. Psychological enlightening and the support of family psychologists are essential for the formation of healthy inter-family relationships. From theoretical point of view the article contributes to the enrichment of scientific knowledge in the field of family psychology. From practical point of view it offers recommendations being useful for psychologists, educators, social workers and parents on establishing and developing correct inter-family relationships.

## Психологические основы формирования внутрисемейных отношений в азербайджанской семье

**Автор(ы):**

**Нуртадж Садигова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** nurtacsadiqova2504@gmail.com

**Ключевые слова:**
азербайджанская семья, семейное воспитание, современная семья, семейные ценности, этнокультурные особенности

**Аннотация.** В статье анализируются психологические основы формирования внутрисемейных отношений в модели азербайджанской семьи. Рассматривается влияние культурных традиций, социальных трансформаций и индивидуально-психологических факторов на характер и динамику семейных отношений. Особое внимание уделяется взаимодействию в системе «родитель — ребёнок», супружеским отношениям и эмоциональным связям между членами семьи.Цель исследования заключается в выявлении психологических факторов, влияющих на формирование внутрисемейных отношений в азербайджанских семьях, анализе их социально-эмоциональной динамики и разработке научно обоснованных рекомендаций по формированию гармоничных семейных отношений. В исследовании применялись методы психологического наблюдения, анализа научных источников, анкетирования и социологического опроса.Результаты показывают, что внутрисемейные отношения в азербайджанских семьях в значительной степени опираются на традиционные ценности, однако в условиях современности претерпевают определённые изменения. Существенную роль в формировании здорового семейного климата играют психологическое просвещение и профессиональная поддержка семейных психологов.

**Giriş**. Ailə cəmiyyətin əsas struktur vahidi olmaqla yanaşı, fərdin şəxsiyyətinin formalaşdığı ilk sosial mühitdir. Ailədaxili münasibətlər isə bu mühitin əsas psixoloji dinamikasını təşkil edir. Azərbaycan cəmiyyətində ailəyə xüsusi dəyər verilməsi, onun qorunması və davam etdirilməsi hər zaman ön planda olmuşdur. Bununla belə, müasir dövrün sosial-iqtisadi dəyişiklikləri, yeni mədəni təsirlər və fərdi yanaşmalar ailədaxili münasibətlərin strukturuna və məzmununa təsir göstərməkdədir. Bu münasibətlərin psixoloji əsaslarını anlamaq, mövcud problemlərin həll yollarını müəyyənləşdirmək və sağlam ailə münasibətlərinin formalaşdırılmasına nail olmaq üçün elmi araşdırmaların aparılması zəruridir.

Cəmiyyətin əsas dayağı olan ailə institutu bu dəyişikliklər fonunda yeni psixoloji çağırışlarla üz-üzə qalır. Bu dəyişikliklərin Azərbaycan ailə kontekstində necə baş verdiyini, ailədaxili münasibətlərə necə təsir etdiyini araşdırmaq aktual elmi və sosial əhəmiyyət kəsb edir. Bu tədqiqatda da ailədaxili münasibətlərin formalaşmasında rol oynayan əsas psixoloji amillər və bu münasibətlərin dəyişən sosial-mədəni mühitdə necə transformasiya olunduğu araşdırılır. Bu məqalədə də məhz bu istiqamətdə elmi təhlillər aparılmışdır.

Tədqiqatın fərziyyəsi ondan ibarətdir ki, Azərbaycan ailələrində ailədaxili münasibətlərin formalaşmasına ənənəvi dəyərlərlə yanaşı, fərdi-psixoloji xüsusiyyətlər, sosial-mədəni dəyişikliklər və kommunikasiya bacarıqları da mühüm təsir göstərir.

Tədqiqatın məqsədi Azərbaycan ailələrində ailədaxili münasibətlərin formalaşmasına təsir edən psixoloji amilləri müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın vəzifələri:

1. Azərbaycan ailə modelinin xüsusiyyətlərini və ailədaxili münasibətlərin tarixi-mədəni kontekstini təhlil etmək;

2. Ailədaxili münasibətlərin formalaşmasına təsir edən əsas psixoloji amilləri (emosional intellekt, ünsiyyət bacarıqları və s.) müəyyənləşdirmək;

3. Valideyn-övlad, ər-arvad və digər ailə üzvləri arasındakı münasibətlərin psixoloji xüsusiyyətlərini öyrənmək;

4. Tədqiqat nəticələrinə əsasən sağlam ailədaxili münasibətlərin formalaşdırılması üçün tövsiyələr hazırlamaq.

Ailədə tərbiyə prosesi uşağın şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Hər bir valideynin övladına yanaşma tərzi, qoyduğu qaydalar, sərgilədiyi münasibət və davranışlar müəyyən tərbiyə üslubuna uyğun gəlir. Bu üslublar uşağın emosional inkişafına, sosial münasibətlərinə, özünə güvən səviyyəsinə və gələcək həyat tərzinə ciddi təsir göstərir. Psixologiyada ailə tərbiyəsinin müxtəlif üslubları mövcuddur:

1. Avtoritar (avtoritar-repressiv) tərbiyə üslubu – bu üslubda valideynlər uşağa qarşı sərt, tələbkar və nəzarətcil olurlar. Onlar qaydalara ciddi riayət olunmasını gözləyir, itaətsizliyə qarşı cəza tədbirləri görürlər. Emosional yaxınlıq nisbətən zəifdir, uşağın fikri çox zaman nəzərə alınmır.

2. Liberal (icazəverici) tərbiyə üslubu – ailədə uşağın tərbiyə olunmasında liberal tərbiyə üsuluna da rast gəlinir. Bu tərbiyə üsulu avtoritar tərbiyə üsulunun tam əksidir. Ailədə uşağın təlim-tərbiyəsi, tədrisi üçün xüsusi qayda-qanun qoyulmur. Onlar ailədə hökmranlıq edən qayda-qanunları pozarkən cəzalandırılmır və arzu olunan, tələb olunan davranış və rəftarlara görə də mükafatlandırılmırlar. Bu tərbiyə üsulunda nizam-intizam, yəni cəzalandırma və rəğbətləndirmə qayda-qanunları münasib şəkildə mövcud deyildir [2, s.68].

3. Laqeyd tərbiyə üslubu – laqeyd tərbiyədə valideynlər nə nəzarət göstərir, nə də emosional dəstək verir. Uşağın emosional və sosial ehtiyacları çox vaxt nəzərə alınmır. Bu üslubda tərbiyə olunan uşaqlar tək buraxılır və inkişaf prosesi demək olar ki, müşahidəsiz qalır.

4. Demokratik (avtoritativ) tərbiyə üslubu – ən optimal və balanslaşdırılmış tərbiyə forması sayılır. Valideynlər uşağa qayda və sərhədləri izah edərək tətbiq edir, eyni zamanda onu dinləyir, qərarvermədə iştirakını təşviq edir. Emosional yaxınlıq yüksək, nəzarət isə zərif və əsaslandırılmış şəkildə tətbiq olunur.

Ailənin hər bir üzvü üçün zəruri olan psixoloji keyfiyyətlərin məcmuyunu psixoloqlar "zəruri ailə keyfiyyətləri" adlandırırlar. Bu keyfiyyətlərin spektri çox genişdir və onları "tələbatlar" adlandırmaqla üç əsas qrupda cəmləşdirmək olar.

Birinci tələbatlar: fərdin ailə həyatında iştirakını, çətinliklərin və problemlərin həllini

motivləşdirən tələbatlar; atalıq və analığa olan tələbat; ər-arvad qarşılıqlı münasibətləri gedişində təmin olunmalı olan sevgiyə, simpatiyaya, seksual-erotik, məişət-təsərrüfat həyatı ilə bağlı tələbatlar və s.

İkinci tələbatlar: qabiliyyətlərin, bacarıq və vərdişlərin geniş dairəsi; hər şeydən əvvəl başqa adamı-ailə üzvünü anlamaq qabiliyyəti; uşaqların tərbiyəsi və ər-arvad münasibətlərinin qorunub saxlanılması üçün zəruri olan bacarıq və vərdişlərin məcmuyu;

Üçüncü tələbatlar: frustrasiya halında öz emosional və iradi vəziyyətini tənzim etmək üçün zəruri olan keyfiyyətlərin geniş dairəsi; ailə üzvlərinin bugünki istəkləri, aktuallaşan ikinci və ya üçüncü təlabatları qarşıya qoyulmuş məqsədə tabe etmək bacarığı; ər-arvadlıq münasibətlərində və tərbiyə məsələlərində səbr və dözümlülük [3, s.246-247].

Azərbaycan ailəsində qarşılıqlı əlaqə belədir: ata ailənin başçısı, ana isə uşaqlarla ər arasında vasitəçi kimi çıxış edir. Əvvəllər olduğu kimi, bu gün də ailə başçısı bütün ailənin hörmətindən istifadə edir. Amma indi o, artıq bütün ailə məsələlərini təkbaşına həll etmir, digər yetkin ailə üzvləri ilə məsləhətləşir. Uşaqların təhsili və uşaqların ailə qurması məsələlərinin həlli zamanı ailə başçısının rəyi mühüm əhəmiyyət kəsb edir və adətən ona qulaq asılır. Azərbaycanda qlobal mədəni inqilaba baxmayaraq, ata “hökmü” əvvəlki kimi hələ də inkişaf edir. Azərbaycanda uşaqlara kiçik yaşlarından nizam-intizam öyrədilir və tam yetkin həyata hazırlanır. Tərbiyənin əsas cəhətləri sərtlik, təmkin və işdir. Transmilli informasiya texnologiyaları sənayesi Azərbaycanın gənc nəslinin yeni prioritetlərinin formalaşmasında əsas rol oynayıb ki, bu da ilk növbədə gənclərin cəmiyyət və mədəniyyət haqqında təsəvvürlərinə ciddi təsir göstərir, onların ətraf reallığa münasibətini dəyişir.

Hər kəsin cəmiyyət və təbiət qarşısında valideynlik borcu var. Valideynlik borcunun əsasını normal həyati fəaliyyət göstərmək qabiliyyətinə malik olan nəslin yetişdirilməsi, tərbiyəsi təşkil edir. Valideynlər övladlarının gələcək psixoloji portreti ilə bağlı müəyyən arzular qurur, təsəvvürlər formalaşdırır və tərbiyə prosesini həmin obrazın reallaşdırılması istiqamətində qururlar. Tərbiyənin uğuru isə tələbkarlıq, kommunikativlik, emosional yaxınlıq və tez-tez nəticəni yoxlayan müəyyən üsullar kompleksinə əsaslanır [1, s.106].

Azərbaycan xalqının adət və ənənələrinə görə tarixən formalaşmış böyük və çoxnəsilli ailəni görmək olar, bir qayda olaraq, burada üç nəsil geniş bir nüvə ailəsi kimi birlikdə yaşayır. Beləliklə, uşaqlar və onların nənə və babaları, bəzən də ulu babalar valideynləri ilə birlikdə yaşaya bilərlər. Belə ailələrin adətən öz tərbiyə sistemi, mənəvi-əxlaqi dəyərləri vardır ki, bunlara iffət və vətənpərvərlik, böyüklərə hörmət, ailə dəyəri, adət-ənənələrin qorunması daxildir. Qızların və oğulların tərbiyəsində fərqlər var, onlar erkən uşaqlıqdan yaranır. Qızlara eyni zamanda ev işləri öyrədilir. Oğlanların tərbiyəsi gələcək atanın və ailəsini təmin edən rolunu əks etdirir ki, o, öz qadınının və ailəsinin müdafiəsinə qalxa bilsin.

Müasir dövrdə ailə başçısı yalnız münaqişəli vəziyyətlərin həllində digər ailə üzvlərindən üstünlüyə malikdir. Bir qayda olaraq, ailə başçıları ailənin əsas təşkilati və tərbiyəvi funksiyalarını yerinə yetirirlər [5, s.123].

Tədqiqat nəticələri göstərir ki, Azərbaycan ailələrində ailədaxili münasibətlər əsasən ənənəvi dəyərlər əsasında formalaşır. Valideynlər və uşaqlar arasında hörmət və itaət prinsipləri hələ də güclüdür, lakin müasir sosial təsirlər bu münasibətlərdə müəyyən dəyişikliklərə səbəb olur. Respondetlərin böyük əksəriyyəti (təxminən 70%) ailə üzvləri arasında qarşılıqlı dəstək və anlaşmanın vacib olduğunu qeyd etmişdir.

Valideynlər və uşaqlar arasında hörmət, itaət və ailənin birliyi prinsipləri yüksək səviyyədə qorunur. Eyni zamanda, müasir dövrün sosial və mədəni təsirləri ailə münasibətlərində müəyyən dəyişikliklərə səbəb olur. Nəticələrdən aydın olur ki, ailədaxili münasibətlərin psixoloji keyfiyyəti əsasən emosional yaxınlıq, qarşılıqlı anlaşma və empatiya səviyyəsi ilə ölçülür.

Ailə insan həyatının ən əsas sosial institutlarından biridir və onun cəmiyyətin inkişafında rolu danılmazdır. Azərbaycan ailəsində ailədaxili münasibətlərin formalaşması və sağlam şəkildə inkişaf etməsi həm fərdin, həm də cəmiyyətin rifahı üçün böyük əhəmiyyət kəsb edir. Ailədaxili münasibətlər ailənin üzvləri arasında qarşılqlı hörmət, anlayış, sevgi və dəstək kimi psixoloji

faktorlar üzərində qurulur və bu münasibətlərin keyfiyyəti ailənin sosial sabitliyini, uşaqların tərbiyəsini və ümumi psixoloji sağlamlığını müəyyən edir.

Müasir dünyada müxtəlif emiqrasiya prosesləri və əhalinin mədəniyyətlərinin qarışması səbəbindən müxtəlif millətlərdən olan ailələr uyğunlaşmaq və dəyər oriyentasiyalarında güzəştlər tapmaq zərurəti ilə üzləşirlər. Etnopsixoloji xüsusiyyətlərin öyrənilməsi bu fərqləri müəyyən etməyə və təhlil etməyə, həmçinin multikultural ailədə birgəyaşayış və qarşılıqlı əlaqənin yol və vasitələrini tapmağa kömək edir. Mədəni dəyərlər ailə münasibətlərinin valideynlər və uşaqlar arasında qarşılıqlı əlaqələrinin əsasını təşkil edir.

Ailə münasibətlərinin demokratikləşməsinə doğru keçid cəmiyyətdə və mədəniyyətdə baş verən dəyişikliklər, həmçinin ailə əlaqələrinin sevgi, hörmət və bərabərliyə əsaslanması ilə bağlı yeni ideyaların inkişafı sayəsində baş verir. Müasir ailələrdə qərarların qəbulunda bütün ailə üzvləri iştirak edir və hər bir ailə üzvü öz fikrini bildirmək və prosesə təsir etmək imkanına malikdir [4, s.83].

Ənənəvi ailə institutunun təsirsiz qaldığı və ya kifayət qədər transformasiya olunmadığı ölkələrdə ailələrin müasir vəziyyəti yüksək sosial-mədəni statusla xarakterizə olunur. Cənub-Şərqi Asiya ölkələri və ərəb dünyası sənaye inqilabı başa çatdıqdan sonra sürətli informasiya partlayışı dövründə ailənin toxunulmaz hakimiyyətini saxlamaqda davam edir. Rusiyada ailə institutu da zamanla çoxsaylı dəyişikliklərə məruz qalıb. Başlanğıcda, rus mədəniyyətində ailə möhkəm təməli olan və dərhal dəyişdirilə bilməyən mühafizəkar bir institut kimi başa düşülür, xüsusən də yalnız rus xalqına daim təsir edən iqtisadi amillər. Rusiya ailələrində nikah münasibətlərinin demokratikləşdirilməsi praktikası ailə həyatının bütün sahələrində baş verən dəyişiklikləri əhatə edir: liderliyin prioritet məsələləri, ailə büdcəsinin və ev təsərrüfatının idarə edilməsi, həmçinin uşaqların birgə qayğısına və tərbiyəsinə aid olan ev işlərində əməkdaşlıq problemləri. Əvvəllər ənənəvi olaraq evliliyin əsası hesab edilən, yəni məişət və gündəlik funksiyalar arxa plana keçir. Müasir dünyada insan varlığının xüsusiyyətləri, bir insanın özünü təmin edə bildiyi zaman, texnologiya ona gündəlik problemləri asanlıqla həll etməyə imkan verir, evlilik üçün yeni bir əsas diktə edir. Ailədə məişət və məişət funksiyaları məsələsi artıq o qədər də kəskin deyil və buna görə də qarşılıqlı rəğbət ön plana çıxır.

**Materiallar və metodlar.** Bu tədqiqat Azərbaycan ailələrində ailədaxili münasibətlərin psixoloji əsaslarını öyrənmək məqsədi daşıyır. Tədqiqatda həm nəzəri mənbələrdən (elmi ədəbiyyat, metodik vəsaitlər), həm də emprik məlumatlardan (sorğular, müşahidələr nəticəsində əldə edilmiş real məlumatlar) istifadə edilmişdir.

Tədqiqat emprik xarakterlidir. Eksperimental baza kimi Naxçıvan şəhərinin müxtəlif rayonlarında yaşayan ailələr və onların üzvləri seçilmişdir.

Tətbiq olunan metod və üsullar, onların təsiri və əsaslandırılması:

**1. Müşahidə metodu** – ailədaxili münasibətlərin real vəziyyəti, emosional reaksiyalar və davranış nümunələri qeydə alınır. Müşahidə nəticələri digər metodlarla toplanan məlumatların təsdiqinə və zənginləşdirilməsinə xidmət edir. Bu metod çərçivəsində Naxçıvan şəhərindəki ailələrdə müşahidələr aparılmışdır.

Müşahidə apardığım Əliyevlər ailəsində atanın ailədaxili qərarları təkbaşına verdiyi, ananın isə daha çox uşaqlara emosional dəstək rolu oynadığı müşahidə olunmuşdur. Ailədaxili münaqişə zamanı ata evdən çıxaraq sükutla reaksiya verir, ana isə vasitəçi kimi çıxış edir.

**2. Sorğu metodu (anketlər)** – müxtəlif qruplar üçün hazırlanmış qapalı və açıq suallardan ibarət anketlər vasitəsilə onların psixoloji ehtiyacları, qarşılaşdıqları çətinliklər və psixoloqla əməkdaşlıq təcrübəsi öyrənilmişdir. Sorğuda valideynlər, gənc ailə üzvləri, böyük nəsil nümayəndələri iştirak etmişdir.

Valideynlərdən (30-55 yaş arası) Nigar Abbasova sorğuda qeyd etmişdir ki, "övladımla emosional bağımın zəif olduğunu hiss edirəm, çünki işlədiyim üçün ona vaxt ayıra bilmirəm".

Zərifə nənə (72 yaş) bildirmişdir: "İndiki ailələrdə hörmət əvvəlki kimi deyil. Qızlar da, oğlanlar da çox sərbəstdir".

**3. Nəzəri təhlil metodu** – ailədaxili münasibətlərin tarixi, mədəni və psixoloji kontekstinin aydınlaşdırılması, mövcud biliklərin ümumiləşdirilməsi. Bu metod tədqiqatın konseptual bazasını təmin edir və emprik məlumatların düzgün

interpretasiyasına zəmin yaradır.

Tədqiqat zamanı aşağıdakı mənbələr analiz edilmişdir:

1. Çələbiyev N.Z. – "Ailə psixologiyası" (2015): Burada ailədaxili münasibətlərin tərbiyə üslubları ilə bağlı təsnifatlar və onların psixoloji təsiri geniş təhlil olunmuşdur.

2. Qurbanova L.M. – "Ailənin psixoloji problemləri" (2012): Valideyn-övlad münasibətlərində yaranan psixoloji gərginliklərin səbəbləri və nəticələri izah olunur.

**Nəticə və müzakirə.** Azərbaycanda ailə institutu zəngin tarixə və müasir cəmiyyətdə mövcud olan mədəni ənənələrə malikdir. Ailə cəmiyyətin bünövrəsi hesab edildiyi güclü ənənələrə əsaslanır. Azərbaycanda da ailə münasibətlərinin əxlaqi-etik tərəfi, o cümlədən burada gənc nəslin sosiallaşması ilə bağlı çoxsaylı araşdırmalar aparılır. Burada Ə.S.Bayramovun, A.K.Əhmədovun, Z.A.Əhmədovanın və s. Azərbaycan ailəsinin əsas xüsusiyyətlərindən biri güclü gender rollarıdır. Azərbaycan cəmiyyətində ənənəvi ailədə kişi ailə başçısı hesab olunur və maddi rifahın təmin olunmasına cavabdehdir. Qadının uşaq böyütmək, ev işlərinə baxmaq kimi daha çox məişət vəzifələri var. Lakin müasir cəmiyyət bu rolların tədricən dəyişməsini göstərir.

Bu gün Azərbaycan etnik qrupunun tələbat və davranışlarının müasir cəmiyyətin müəyyən standartları ilə tənzimlənməsi tendensiyası müşahidə olunur, mədəniyyət, adət-ənənələr öz yerini müasir həyat tərzinə verir. Milli şüur tədricən düzlənir, gənc nəsil cəmiyyətin inkişafında və formalaşmasında daha liberal meyllərə meyl edir. Etnik şüurun müasirləşməsinin parlaq təzahürü gündəlik həyatın dəyişmiş etnik xüsusiyyətlərinə çevrildi. Məsələn, müasir Azərbaycan cəmiyyətində boşanmaların sayında artım və tək valideynli ailələrin yaranması müşahidə olunur.

Müasir dövrdə ana obrazının formalaşmasının fərqli xüsusiyyəti, analığın müqəddəs mənalarının qismən itirilməsi və sosial bərabərlik ideyaları ilə nüfuz edən yeni ideoloji təlimatların daxil edilməsi, qadınların ictimai həyatda artan rolu və cəmiyyətin inqilabi şəkildə yenidən qurulması ilə əlaqəli onun mahiyyətcə transformasiyasıdır. Eyni zamanda, cəmiyyətin psixi şüurunda ailənin və analığın mənəvi-əxlaqi müqəddəs dəyərlərinin üstünlüyünü təcəssüm etdirən ana obrazı ilə öz dövlətinin fəal vətəndaşı olan işləyən ana obrazı arasında ziddiyyət üzə çıxır. Belə nəticəyə gəlmək olar ki, ailə dəyərləri hazırda ər-arvad arasında yaxın bərabər münasibətlər, bütün ailənin demokratikləşməsi, hər bir üzvün səsinin çəkisi, emosional dəstəyi ilə xarakterizə olunur. Eyni zamanda, ənənəvi dəyərlər və feminist dəyərlər analar üçün ziddiyyət təşkil edir ki, bu da valideyn-övlad və evlilik münasibətlərində çətinliklər yarada bilər.

İqtisadi və məişət şəraitinin köklü dəyişməsi nəticəsində valideyn-övlad, qardaş-bacı münasibətləri kökündən dəyişmişdir. Azərbaycan cəmiyyətində yeni davranış modelləri və müasir ailədaxili ünsiyyət digər ailə üzvlərinin, o cümlədən uşaqların fikirlərinin nəzərə alınması, müəyyən ailə məsələlərinin həlli zamanı məsləhətləşməsi və nikaha daxil olarkən uşaqlara həyat yoldaşı seçmək imkanı verilməsi olmuşdur. Böyüklərə xüsusi münasibət hər kəsin ata evə girəndə ayağa qalxıb salam verməsi, istəklərini yerinə yetirməsi, özlərinə və davranışlarına baxması, daha sakit danışması və s. adətlərində özünü göstərir.

Azərbaycan ailəsində ata sözü qanundur. Qardaş ailədə atadan sonra ikinci kişi olduğundan qızların qardaşlarına hörmət ruhunda tərbiyə olunmasına diqqət yetirilir. Adətə görə, ata vəfat etdikdə ailənin başçısı və ağsaqqalı böyük qardaş olur və buna görə də hamı ona hörmət etməyə borcludur. Ana ev işlərini qaydasına salır, uşaqların tərbiyəsi ilə məşğul olur. Ailədə anadan sonra ikinci qadın böyük bacıdır. Ailənin ən kiçik üzvü ümumi qayğı və sevgi obyekti kimi xidmət edir. Müasir ailələrdə uşaqlar artıq qocalmış valideynlərin köməkçisi və gələcək dolandırıcısı kimi qəbul edilmir. Təhsilin əsas məqsədi layiqli insan yetişdirməkdir.

Azərbaycan ailəsində ailədaxili münasibətlərin formalaşmasının psixoloji əsasları mövzusunda aparılan bu tədqiqat nəticəsində məlum oldu ki, ailə – təkcə bioloji və hüquqi münasibətlərin qurulduğu bir birlik deyil, həm də dərin psixoloji bağların, emosional qarşılıqlı təsirlərin formalaşdığı mühüm sosial mühitdir. Valideynlər və uşaqlar, həyat yoldaşları arasında qurulan münasibətlərin keyfiyyəti ailənin daxili harmoniyasını, ailə üzvlərinin psixoloji rifahını və gələcəkdə cəmiyyətlə sağlam inteqrasiyasını şərtləndirir.

**Yekun nəticə.** Tədqiqat göstərdi ki, ailədaxili münasibətlərə təsir edən başlıca psixoloji faktorlar bunlardır: ünsiyyətin səviyyəsi, emosional yaxınlıq, qarşılıqlı hörmət və məsuliyyət bölgüsü. Ənənəvi Azərbaycan ailələrində bu münasibətlər daha çox patriarxal modellərlə tənzimlənir və ailə başçısının (adətən ata) dominant rolu müşahidə olunur. Bununla belə, müasir sosial-iqtisadi və mədəni dəyişikliklər ailə modelində də çevrilmələrə səbəb olmuş, xüsusən də gənc ailələrdə daha bərabərhüquqlu, demokratik münasibətlərin formalaşmasına zəmin yaratmışdır.

Tərbiyə üslubları isə uşağın şəxsiyyətinin formalaşmasında həlledici rol oynayır. Avtoritar və laqeyd tərbiyə modelləri uşağın inkişafına mənfi təsir göstərdiyi halda, demokratik və emosional baxımdan dəstəkləyici tərbiyə üslubu sağlam psixoloji mühitin yaranmasına səbəb olur. Beləliklə, valideynlərin uşaqlara qarşı göstərdiyi münasibət, onların özünəinamını, qərarvermə qabiliyyətini və sosial davranışlarını birbaşa müəyyən edir.

Aparılan empirik tədqiqat nəticələri göstərdi ki, ailədaxili münaqişələrin əsas səbəbləri arasında ünsiyyət çatışmazlığı, sosial-iqtisadi gərginliklər, gender rolları ilə bağlı gözləntilər və nəsillərarası dəyərlər toqquşması dayanır. Bununla yanaşı, ailələrdə psixoloji maarifləndirmə, effektiv ünsiyyət bacarıqlarının inkişafı və ailə məsləhət xidmətlərinin tətbiqi bu problemlərin aradan qaldırılmasına yardım edə bilər.

Bu tədqiqat həm nəzəri, həm də praktik baxımdan əhəmiyyətlidir. Nəzəri baxımdan o, ailə psixologiyası və sosial münasibətlər sahəsində mövcud bilikləri genişləndirir, praktik baxımdan isə ailələrə sağlam münasibətlərin qurulması üçün tövsiyələr verir. Valideynlərin psixoloji savadlılığının artırılması, ailə institutunun dəstəklənməsi və dövlət səviyyəsində ailə mərkəzlərinin təşkili bu istiqamətdə mühüm addımlardan biri ola bilər.

Nəticə etibarilə, sağlam ailədaxili münasibətlərin formalaşması üçün yalnız mədəni və sosial dəyərlər deyil, eyni zamanda psixoloji biliklərə əsaslanan şüurlu yanaşma vacibdir. Bu yanaşma ailənin funksionallığını və cəmiyyətin psixoloji rifahını təmin edən mühüm faktorlardan biridir.

## Ədəbiyyat

1. Qurbanova, L.M. Ailənin psixoloji problemləri və həlli yolları / L.M.Qurbanova. – Bakı: Bilik, – 2012, – 232 s.
2. Hüseynzadə, R.L. Ailə pedaqogikası / R.L-Hüseynzadə. – Bakı, – 2016, – 320 s.
3. Çələbiyev, N.Z. Ailə psixologiyası (Ali məktəblər üçün dərs vəsaiti) / N.Z.Çələbiyev. – Bakı, – 2015, – 422 s.
4. Бартольд, В.В. Ислам. Культура мусульманства / В.В.Бартольд. – Москва: Издательство Юрайт, – 2023. – 221 с.
5. Хухлаева, О.В. Этнопедагогика: учебник для / О.В.Хухлаева. – Москва: Издательство Юрайт, – 2023. – 333 с.

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 18.04.2025, son daxilolma – 13.05.2025, qəbulolunma – 10.09.2025